

# Laçın Zirvəsi:

## Qardaşlığın örnəyi və yeni regional arxitekturanın konturları

*Azərbaycanın qədim və füsunkar guşəsi olan Laçın 28 May - Müstəqillik Günündə tarixi hadisəyə ev sahibliyi etdi. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan və Pakistan İslam Respublikasının Baş naziri Məhəmməd Şahbaz Şərifin iştirakı ilə keçirilən üçtərəfli Zirvə görüşü Türk-İslam dünyası üçün mühüm əhəmiyyət kəsb edir. İşğaldan azad edilmiş Laçında yaradılmış müasir şərait Azərbaycan dövlətinin ərazilərin bərpası və yenidən qurulması sahəsində gördüyü irimiqyaslı işlərin bariz nümunəsdir. Bu müqəddəs torpaqlara həyatın qayıtması və burada mühüm beynəlxalq tədbirlərin, o cümlədən ali səviyyəli görüşlərin keçirilməsi Azərbaycanın qələbəsinin və sarsılmaz iradəsinin təcəssümüdür.*

İkinci Qarabağ müharibəsinin ilk anlarından Azərbaycana qeyd-şərtsiz siyasi və mənəvi dəstək verən qardaş Türkiyə və Pakistanın Zirvə görüşündə iştirakı xüsusi rəmzi məna kəsb edirdi. Azərbaycanın Müstəqillik Günündə Laçında bir araya gəlmək üç ölkə arasında sarsılmaz qardaşlıq, ortaq dəyərlər və strateji maraqlar üzərində qurulmuş münasibətlərin gələcəyə yönəlik daha da möhkəmləndirilməsi mesajını verirdi: Azərbaycan haqq işində heç vaxt tək olmayıb və olmayacaq.

Prezident İlham Əliyev Laçına təşrif buyuran Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanı və Pakistanın Baş naziri Məhəmməd Şahbaz Şərifi səmimiyyətlə salamlayaraq, onları Şərqi Zəngəzurun incisi olan Laçında görməkdən dərin məmnunluğunu ifadə etdi. Dövlət başçısı bu görüşün Azərbaycanın əziz bayramı olan Müstəqillik Günündə və uzun illər davam edən erməni işğalından azad edilmiş Laçın torpağında keçirilməsinin tarixi və rəmzi əhəmiyyətini xüsusi olaraq vurğuladı. Bu, Azərbaycanın ərazi bütövlüyünün bərpası ilə yanaşı, regionda yeni əməkdaşlıq və inkişaf erasının başladığının göstəricisidir.

Zirvə görüşündə dövlət başçısı Azərbaycan, Türkiyə və Pakistan xalqlarını birləşdirən dərin tarixi köklərə, ortaq mədəni irsə və mənəvi dəyərlərə diqqət çəkdi: "Bizim xalqlarımız tarix boyu bir-birinin sevincinə şərik olub, kədərli günlərində isə bir-birinə dayaq durublar. Hər üç ölkə beynəlxalq hüququn fundamental prinsipləri olan suverenlik, ərazi bütövlüyü və ədalət kimi dəyərlərə hər zaman sadiq qalıb". Azərbaycan lideri 44 günlük Vətən müharibəsi dövründə münaqişənin ilk saatlarından etibarən Türkiyə və Pakistan tərəfindən göstərilən birmənalı siyasi və mənəvi dəstəyə görə Azərbaycan xalqı adından bir daha dərin minnətdarlığını çatdırdı. Bunun ölkəmizin haqq işinə verilən beynəlxalq dəstəyin ən bariz nümunələrindən biri olduğunu qeyd edən dövlət başçısı Azərbaycanın da hər zaman qardaş Türkiyə və Pakistanın yanında olduğunu və bu gün Laçında bir araya gəlməklə xalqlarımızın sarsılmaz birliyinin bütün dünyaya bir daha nümayiş etdirildiyini bildirdi.

Azərbaycan Prezidenti üç ölkənin əlverişli strateji coğrafi mövqe və dinamik inkişaf edən iqtisadi potensialdan daha səmərəli istifadə etməklə qarşılıqlı fayda əsasında əməkdaşlığı genişləndirmək üçün böyük imkanların mövcud olduğunu vurğuladı.

**(davamı 2-ci səhifədə)**



# Laçın Zirvəsi:

## Qardaşlığın örnəyi və yeni regional arxitekturanın konturları

**(əvvəli 1-ci səhifədə)**

Siyasi dialoq, iqtisadi əlaqələr, enerji təhlükəsizliyi, qarşılıqlı investisiya qoyuluşları, nəqliyyat-logistika dəhlizlərinin inkişafı, müdafiə sənayesi, kənd təsərrüfatı, yüksək texnologiyalar və informasiya-kommunikasiya texnologiyaları kimi prioritet sahələrdə birgə layihə və proqramların icrası vasitəsilə əməkdaşlığın daha da sürətlə inkişaf edəcəyinə əminliyini ifadə etdi. Azərbaycanın qardaş Türkiyə iqtisadiyyatına artıq 20 milyard ABŞ dollarından çox sərmayə yatırdığını, Pakistan iqtisadiyyatına isə ilkin mərhələdə 2 milyard ABŞ dolları həcmində investisiya qoymağa hazır olduğunu və bu istiqamətdə konkret layihələr üzərində işlərin davam etdiyini bildirməsi iqtisadi əməkdaşlığın praktiki müstəviyə keçdiyini və konkret nəticələr verdiyini göstərirdi. Bu, həm də qarşılıqlı etimadın və uzunmüddətli strateji baxışın ifadəsi idi.

Energetika sahəsindəki əməkdaşlığın regional və qlobal əhəmiyyətini qeyd edən Prezident İlham Əliyev Azərbaycan və Türkiyənin birgə reallaşdırdığı irimiqyaslı enerji layihələrinin bütövlükdə Avrasiyanın enerji xəritəsini əsaslı şəkildə dəyişdiyini bildirdi. Hər iki ölkənin Avropanın enerji təhlükəsizliyinin təmin olunmasında getdikcə daha mühüm rol oynadığını və bu gün artıq "yaşıl enerji" dəhlizinin yaradılması, bərpaolunan enerji mənbələrinin istehsalı və ixracı istiqamətində ambisiyalı layihələrə start verildiyini vurğuladı. Bu, ölkələrimizin qlobal iqlim dəyişmələri ilə mübarizəyə verdiyi töhfəni və gələcəyə yönəlik dayanıqlı inkişaf strategiyasını nümayiş etdirdi. Eyni zamanda, Azərbaycan və Türkiyə ərazisindən keçərək Asiya ilə Avropanı birləşdirən Şərq-Qərb nəqliyyat dəhlizinin strateji əhəmiyyətini vurğulayan dövlət başçısı multimodal yükdaşıma marşrutlarının inkişaf etdirilməsi yolu ilə qardaş Pakistanın da bu qlobal təşəbbüsdə daha fəal iştirakının üçtərəfli əməkdaşlığa yeni impuls verəcəyinə inandığını bildirdi.

Görüşdə müdafiə və təhlükəsizlik sahəsindəki əməkdaşlıq üçtərəfli tərəfdaşlığın mühüm sütunlarından biri kimi xarakterizə edildi. Mütəmadi olaraq keçirilən "Üç Qardaş" təlimlərinin, hərbi-texniki sahədə həyata keçirilən birgə layihələrin və təcrübə mübadiləsinin hər üç ölkənin silahlı qüvvələrinin döyüş qabiliyyətini və qarşılıqlı uzlaşma potensialını əhəmiyyətli dərəcədə gücləndirdiyi qeyd olundu. Prezident İlham Əliyev, həmçinin rəqəmsal transformasiya, süni intellekt, kibertəhlükəsizlik və kosmik sənaye kimi innovativ sahələrdə də əməkdaşlıq imkanlarının araşdırılmasının və birgə layihələrin həyata keçirilməsinin zəruriliyini vurğuladı. Birgə mədəni tədbirlərin, elm və təhsil sahəsində tərəfdaşlıqların, gənclər mübadiləsinin və turizm əlaqələrinin intensivləşdirilməsinin xalqlarımız arasında mövcud olan dərin mənəvi bağları daha da möhkəmləndirəcəyi bildirildi.

Beynəlxalq təşkilatlar çərçivəsindəki əməkdaşlığın əhəmiyyətinə toxunan Azərbaycan Prezidenti Birləşmiş Millətlər Təşkilatı, İslam Əməkdaşlıq Təşkilatı, İqtisadi Əməkdaşlıq Təşkilatı, Türk Dövlətləri Təşkilatı, Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri üzrə Müşavirə (AQEM) və D-8 kimi nüfuzlu beynəlxalq və regional platformalarda üç ölkənin birgə səylərinin və həmrəyliyinin daha da gücləndirilməsi əzmində olduqlarını diqqətə çatdırdı. Azərbaycanın ötən il D-8 Təşkilatının 11-ci Zirvə Toplantısı zamanı bu quruma yekdilliklə üzv seçilməsində göstərdikləri qardaşlıq dəstəyinə görə Türkiyə və Pakistana bir daha səmimi təşəkkürünü ifadə etdi.

Ölkə lideri Türkiyənin terrorizmin bütün forma və təzahürlərinə qarşı apardığı qətiyyətli mübarizədə əldə etdiyi mühüm uğurların Azərbaycanda böyük məmnunluqla qarşılandığını bildirdi. Eyni zamanda PKK terror təşkilatının özünü ləğv etməsi və silahı yerə qoyması ilə bağlı qərarını Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın müdrik liderliyinin, sarsılmaz iradəsinin və qüdrətli Türkiyə dövlətinin gücünün bariz nümunəsi kimi dəyərləndirdi.

Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan çıxışına qardaş Azərbaycan xalqını 28 May - Müstəqillik Günü münasibətilə ürəkdən təbrik etməklə başladı və Azərbaycanın istiqlaliyyəti uğrunda canlarından keçən bütün şəhidləri dərin ehtiramla yad etdi. Türkiyə, Azərbaycan və Pakistanı qarşılıqlı sevgi, hörmət və sarsılmaz etimada əsaslanan, eyni idealları və dəyərləri bölüşən üç qardaş ölkə olduğunu xüsusi vurğuladı. Ümumilikdə təxminən 350 milyon nəfərlik əhaliyə və 1,5 trilyon ABŞ dollarını aşan ümumi iqtisadi gücə malik olan ölkələrimiz arasındakı mövcud möhkəm bağların daha da gücləndirildiyini qeyd edən R.T.Ərdoğan bu birliyin konkret və nəticəyönümlü strateji tərəfdaşlığa çevrilməsinə istiqamətlənmiş hər bir addımın Türkiyə tərəfindən qətiyyətlə dəstəkləndiyini və dəstəklənəcəyini bəyan etdi.

Türkiyə lideri regionumuzda və qlobal miqyasda cərəyan edən mürəkkəb hadisələrin, artan geosiyasi gərginliklərin üç qardaş ölkə arasındakı həmrəyliyin və sıx əməkdaşlığın nə qədər həyati əhəmiyyət daşıdığını hər keçən gün daha aydın şəkildə ortaya qoyduğunu bildirdi. Azərbaycanın 30 ilə yaxın müddətdə işğal altında qalan tarixi torpaqlarının qəhrəmancasına azad edilməsi ilə artıq bütün regionun sabitlik, davamlı rifah və hərtərəfli inkişaf mərkəzinə çevrilməsini ürəkdən arzuladıqlarını ifadə etdi. Məhz Zirvə görüşü günü təntənəli açılışı həyata keçirilən müasir Laçın Beynəlxalq Hava Limanının bütövlükdə Cənubi Qafqaz regionunun uzun illərdir həsrətində olduğu dinamik inkişafa və dünya iqtisadiyyatına daha fəal inteqrasiyasına mühüm töhfələr verəcəyinə dərin inamını bildirdi. Prezident R.T.Ərdoğan həmçinin qardaş Pakistan ilə Hindistan arasında son gərginliyin atəşkəs razılaşması ilə nəticələnməsindən böyük məmnunluq duyduğunu ifadə edərək, bu mürəkkəb proses zamanı nümayiş etdirdiyi təmkinli, məsuliyyətli və eyni zamanda qətiyyətli mövqeyinə görə Baş nazir Şahbaz Şərifə və bütün Pakistan rəsmilərinə səmimi təbriklərini çatdırdı və rəsmi Ankaranın regionda davamlı sülhün bərqərar olması yolunda üzərinə düşən hər cür töhfəni verməyə hazır olduğunu bəyan etdi.

Mütəmadi olaraq üçtərəfli Zirvə görüşlərinin və müxtəlif sahələr üzrə nazirlər səviyyəsində toplantıların təşkil edilməsi ilə əməkdaşlığın daha sistemli və institusional səviyyəyə qaldırılacağı, müdafiə sahəsində strateji tərəfdaşlığın daha da dərinləşdiriləcəyi və terrorizmin bütün formalarına, eləcə də digər transmilli təhdidlərə qarşı ortaq qətiyyətin və birgə mübarizənin davam etdiriləcəyi qeyd olundu. Nəqliyyat sahəsində "İnkişaf Yolu" (İraq-Türkiyə), "Orta Dəhliz" (Şərq-Qərb) və "Şimal-Cənub Beynəlxalq Nəqliyyat Dəhlizi" kimi regional və qlobal əhəmiyyətli meqalayihələrə üç ölkənin birgə töhfə verəcəyi də xüsusi olaraq vurğulandı. R.T.Ərdoğan çıxışında müasir beynəlxalq münasibətlər sisteminin dərinləşən qütbləşmə, artan bloklaşma meyilləri və etimadsızlıq mühiti şəraitində getdikcə daha ciddi legitimlik böhranına doğru sürükləndiyinə diqqət çəkdi.

Pakistan İslam Respublikasının Baş naziri Məhəmməd Şahbaz Şərif də öz növbəsində Prezident İlham Əliyevi və bütün Azərbaycan xalqını Müstəqillik Günü münasibətilə təbrik etdi. Qardaş Azərbaycan xalqının azadlığı və suverenliyi uğrunda çox çətin və şərəfli mübarizə yolu keçdiyini və bu gün beynəlxalq aləmdə özünəməxsus güclü və hörmətli mövqeyə malik olduğunu xüsusi vurğuladı. Baş nazir Şahbaz Şərif, eyni zamanda, Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanı PKK terror təşkilatı ilə bağlı məsələni böyük siyasi müdriklik və diplomatik məharətlə həll etməsi münasibətilə təbrik edərək, bunun bütün dünya miqyasında malik olduğu yüksək hörmətin və liderlik keyfiyyətlərinin bariz sübutu olduğunu bildirdi. Füsunkar Laçın səmasında Azərbaycan, Türkiyə və Pakistan bayraqlarının birgə dalğalanmasının qəlbini hədsiz sevinc və qürur hissi ilə doldurduğunu səmimiyyətlə ifadə edən Pakistan hökumətinin başçısı qardaş Qazaxıstanın paytaxtı Astanada üçtərəfli formatda keçirilən ilk Zirvə görüşündə son dərəcə səmərəli və məzmunlu müzakirələr apardıqlarını və bu gün Azərbaycanın gözəl guşəsi olan Laçında bu strateji tərəfdaşlığı xalqlarının ortaq iradəsinə və mənafeyinə uyğun olaraq keyfiyyətcə daha yüksək bir səviyyəyə qaldırmaq arzusunda olduqlarını bəyan etdi.

Məhəmməd Şahbaz Şərif Azərbaycan, Türkiyə və Pakistan xalqlarını bir-birinə bağlayan tellərin əsrlər boyu formalaşmış ortaq dəyərlərə, dərin tarixi köklərə, zəngin mədəni irsə və sarsılmaz qarşılıqlı dəstəyə əsaslandığını vurğuladı. Son dövrlərdə bu tarixi və qardaşlıq münasibətlərinin Azərbaycanın Qarabağda, Pakistanın Kəşmirdə və Türkiyənin Şimali Kiprdə öz haqlı mövqelərində bir-birlərinin yanında qətiyyətlə durmaqla daha da gücləndiyini və möhkəmləndiyini qeyd etdi. Pakistanın Hindistanla sonuncu hərbi gərginliyi zamanı Azərbaycan və Türkiyədəki qardaş xalqların və dövlətlərin göstərdiyi güclü və birmənalı dəstəyi xüsusi minnətdarlıq hissi ilə xatırladı. Pakistanın Hindistanla yaşanan son münaqişəsi zamanı ölkəsinə qarşı heç bir tutarlı və əsaslı dəlilin təqdim olunmadığını, hətta Pahalqam bölgəsində baş vermiş və çoxsaylı insan tələfatına səbəb olmuş insidentlə bağlı istənilən nüfuzlu beynəlxalq qurum tərəfindən bitərəf və şəffaf bir tədqiqatın aparılması ilə bağlı Pakistan tərəfinin rəsmi təkliflərinin belə Hindistan tərəfindən əsassız olaraq rədd edildiyini bildirdi. Baş nazir bugünkü mürəkkəb və təlatümlü dünyada mövcud olan ciddi qlobal çağırışlar, davam edən silahlı münaqişələr, iqlim dəyişmələrinin fəlakətli nəticələri, pandemiyalar və dərinləşən iqtisadi böhranlar fonunda üç qardaş ölkənin bir araya gələrək münaqişə və qarşıdurmanı qətiyyətlə rədd etmələri, əvəzində isə dialoq, əməkdaşlıq və qarşılıqlı mərhəməti seçmələrinin müstəsna əhəmiyyət daşıdığını vurğuladı. Pakistanın Türkiyə və Azərbaycan kimi iki səmimi, etibarlı və cəsur qardaşının olmasından böyük qürur duyduğunu və bu ölkələrə hər zaman tərəddüdsüz olaraq tam etibar etdiyini bildirdii.

Baş nazir Pakistanın bütün qonşuları ilə, o cümlədən Hindistanla sülh və mehriban qonşuluq şəraitində yaşamaq arzusunda olduğunu və bunun üçün yeganə doğru yolun konstruktiv danışıqlar masasından keçdiyini vurğuladı. BMT Təhlükəsizlik Şurasının Kəşmir problemi ilə bağlı qəbul etdiyi çoxsaylı qətnamələrinə və Kəşmir xalqının azad və sərbəst iradəsinə tam uyğun olaraq, yalnız sülh yolu ilə ədalətli həll edilməli olduğunu dedi. Həmçinin, Hindistanın münaqişə zamanı iki ölkə arasında mövcud olan su bölgüsü ilə bağlı beynəlxalq sazişi kobud şəkildə pozaraq 240 milyonluq Pakistan xalqını həyati əhəmiyyətli içməli və suvarma suyundan məhrum etməsindən dərin təəssüf və məyusluq hissi keçirdiyini ifadə etdi. Terror məsələsinə də toxunan Baş nazir əgər Hindistan terrorla mübarizə sahəsində həqiqətən səmimi və konstruktiv dialoqa hazırdırsa, Pakistanın bu məsələni ətraflı şəkildə müzakirə etməyə hazır olduğunu, terrorizmin əsas və ən çox zərər çəkən qurbanının məhz Pakistan olduğunu, son onilliklər ərzində 90 mindən artıq günahsız pakistanlının terror aktlarının qurbanı olduğunu və ölkə iqtisadiyyatına 150 milyard ABŞ dollarından çox həcmdə çox böyük maddi ziyan dəydiyini vurğuladı.

Laçında keçirilən üçtərəfli Zirvə görüşü bir daha əyani şəkildə sübut etdi ki, qardaş Türkiyə qlobal miqyasda mühüm güc mərkəzinə çevrilməkdədir. Onun beynəlxalq aləmdəki nüfuzu və təsir imkanları getdikcə artır, müstəqil xarici siyasət kursu və əldə etdiyi mühüm uğurlar dost və qardaş ölkələr, o cümlədən Azərbaycan tərəfindən böyük rəğbət və məmnunluqla qarşılanır. Eyni zamanda, nüvə silahına malik olan Pakistan İslam Respublikası da özünü regionda və İslam dünyasında güclü və prinsipial dövlət kimi təsdiq edir. Bu iki qüdrətli ölkənin Azərbaycanla qarşılıqlı münasibətləri artıq strateji tərəfdaşlıq səviyyəsinə yüksəlmişdir və bütün sahələrdə ikitərəfli əlaqələr yüksələn xətlə və dinamik şəkildə inkişaf etməkdədir. Laçında keçirilən tarixi görüş üçtərəfli əlaqələrin inkişafı baxımından təkcə dərin rəmzi məna daşımır, həm də müstəsna dərəcədə mühüm strateji əhəmiyyətə malikdir. Üç qardaş ölkə arasında daha dərin və hərtərəfli əlaqələrin qurulması və bu üçlük platformasının yeni və effektiv bir regional əməkdaşlıq modeli kimi artıq real bir faktora çevrilməsi, bölgədə yeni güc və sabitlik mərkəzinin formalaşmasından xəbər verir.

Prezident İlham Əliyevin müdrik və uzaqgörən şəxsiyyətinə, onun rəhbərliyi ilə Azərbaycanın əldə etdiyi tarixi qələbələrə və hərtərəfli inkişafa qardaş Türkiyə və Pakistanın dövlət başçılarının, həm də bu ölkələrin geniş ictimaiyyətinin dərin hörmət və rəğbəti var. Bu, Azərbaycan liderinin prinsipial mövqeyi, qətiyyətli siyasəti, milli maraqları hər şeydən üstün tutması və beynəlxalq aləmdə ölkəsinin nüfuzunu durmadan artırması ilə birbaşa bağlıdır. Azərbaycanın son illərdə xarici siyasət sahəsində əldə etdiyi mühüm uğurlar da göz qabağındadır. Ölkəmizin dünyanın ikinci böyük iqtisadiyyatına malik olan Çin Xalq Respublikası ilə hərtərəfli strateji tərəfdaşlıq münasibətləri qurması, cənub qonşumuz İran İslam Respublikası ilə münasibətlərdə müşahidə olunan pozitiv dinamika və qarşılıqlı anlaşma mühitinin güclənməsi, eyni zamanda Avropa İttifaqı və Amerika Birləşmiş Ştatları kimi Qərb tərəfdaşları ilə münasibətlərin konstruktiv və qarşılıqlı faydalı məcrada inkişaf etdirilməsi Azərbaycanın yürütdüyü balanslı, çoxşaxəli və milli maraqlara əsaslanan müstəqil xarici siyasət kursunun məntiqi nəticəsidir.

Laçın səmasında qürurla dalğalanan üç qardaş ölkənin dövlət bayraqları bu birliyin əbədi, sarsılmaz və gələcəyə yönəlik olacağının parlaq rəmzidir. Bu tarixi görüş eyni zamanda bir daha sübut etdi ki, Azərbaycan əzəli torpaqlarını işğaldan azad etməklə təkcə öz ərazi bütövlüyünü və tarixi ədaləti bərpa etməyib, həm də bütün Cənubi Qafqaz regionunda tamamilə yeni geosiyasi reallıqlar yaradıb və məhz bu yeni reallıqlar üzərində qurulan innovativ və çoxşaxəli əməkdaşlıq formatları bölgənin sülh və tərəqqi dolu gələcəyinə geniş və parlaq yol açır.

**Yusif ŞƏRİFZADƏ,**
**"Respublika".**